# BİLƏSUVAR: YENİ UĞURLAR İQTİSADİ İNKİŞAFIN TƏMƏLİDİR

**Respublikamızın Aran bölgəsində yerləşən tarixlər şahidi Biləsuvar rayonunun hünərvər insanları həmişə olduğu kimi, 2015-ci ildə də uğurla çalışırlar. Hər kəs aydın görür ki, ulu öndər Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin bəhrəsi olan mükəmməl strateji kursun son illərdə dönmədən davam etdirilməsi sayəsində insanların həyat səviyyəsi xeyli yüksəlmişdir. Rayonun sakinləri ölkədə baş verən müsbət dəyişikliklərə müntəzəm olaraq öz töhfələrini verir, ümumi inkişafdan geri qalmırlar. Ölkə başçısı bu istiqamətdə atılmış addımları yüksək qiymətləndirmiş, möhtəşəm layihələrin əzmlə gerçəkləşdirildiyini, infrastruktur quruculuğun geniş vüsət aldığını, əhalinin ehtiyaclarının getdikcə daha dolğun ödənildiyini qeyd etmişdir.**











**Rayon icra hakimiyyətinin başçısı Mahir Quliyev** bizə bildirdi ki, Biləsuvar davamlı sosial-iqtisadi inkişaf, əhalinin sosial vəziyyətinin durmadan yaxşılaşdırılması cəhətdən Aran iqtisadi bölgəsinin inkişaf etmiş rayonlarındandır. Müstəqil respublikamızın sosial-iqtisadi tərəqqi sahəsində əldə etdiyi nailiyyətlərdə bu rayonun insanlarının da payı vardır. Prezident İlham Əliyevin yeni-yeni təşəbbüsləri adamların coşqun əmək və siyasi əhval-ruhiyyəsini şərtləndirən amilə çevrilmişdir. Prezidentin rayona dəfələrlə səfər etməsi, insanlarla görüşüb rayonun iqtisadi və sosial həyatındakı yeniliklərlə tanış olması və adamların işinə yüksək qiymət verməsi onların yaradıcılıq əzmini artıran əsas amildir.

Rayonda 2015-ci ilin ilk ayları bir sıra uğurlarla müşayiət olunmuş, iqtisadi inkişafın sürətləndirilməsi, tikinti-abadlıq işlərinin görülməsi və əhalinin sosial problemlərinin həlli istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

Hər şeydən öncə qeyd edək ki, rayonda tikinti-abadlıq işləri genişlənməkdədir. 2 hektar sahəsi olan Heydər Əliyev parkında yenidənqurma işləri görülmüş, burada 6400 kvadratmetr sahədə park yenidən qurulmuş, şəhərdə smeta dəyəri 4,5 milyon manat olan 3 mərtəbəli, 28 otaqdan ibarət Heydər Əliyev Mərkəzi tikilib istifadəyə verilmişdir. Burada şahmat, xalçaçılıq və heykəltəraşlıq dərnəkləri, rəqs, dizayn, foto və kompüter studiyaları, internet-kafe, elektron kitabxana, kino zalı fəaliyyət göstərir. Heydər Əliyevin abidə kompleksi, rayon icra hakimiyyətinin yeni binası, YAP rayon şöbəsinin binası, fəvvarələr meydanı rayon mərkəzinin yaraşığıdır. Şəhərin Mübariz İbrahimov, Nizami, S.Rufullayev, M.Əzizbəyov, Xaqani, Sahil, B.Abbasov küçələrində abadlıq işləri görülmüşdür. Kommunal evlərin su təchizatına xüsusi diqqət yetirilmiş, şəhərin su təchizatı sistemi yenidən qurulmuş, su anbarları və kanalizasiya xətləri təmizlənmiş, nasosxanaların fasiləsiz işi nizama salınmış, elektrik mühərrikləri təmir edilmişdir. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün 2 hektar ərazidə illik istehsal gücü 500 ton olan istixana, həmin məhsulların saxlanması üçün Bəydili kəndində 800 tonluq soyuducu kamera inşa olunmuşdur. 220 yerlik Əmənkənd tam orta məktəbinin binası tikilmiş, 640 yerlik Xırmandalı kənd 1 saylı orta məktəbinin, 1176 yerlik 42 sinif otağı olan Ağalıkənd kənd orta məktəblərinin əsaslı təmiri başa çatdırılmışdır. Rayon mərkəzində minlərlə bəzək ağacı və gül kolları əkilmişdir. Bir çox digər yaşayış məntəqələrində abadlıq və yenidənqurma işlərinin səviyyəsi daha yüksək olmuşdur. Aşağı Cürəli kəndində orta məktəbin, şəhərdə 50 yerlik, Zəhmətabad kəndində 40 yerlik uşaq bağçasının binaları tikilib istifadəyə verilmişdir. İndi Aşağı Cürəli və Xırmandalı kənd 2 saylı uşaq bağçasının, Toxumçuluq idarəsi binasının, Səmədabad kəndində Heydər Əliyev parkının inşası, Mərkəzi xəstəxana kompleksinin yenidən qurulması işləri uğurla davam etdirilir.

Son illərdə yol tikintisinə xüsusi önəm verilmişdir. Prezident İlham Əliyevin tapşırığına əsasən 10,5 kilometrlik Biləsuvar dairəvi yolu, 19 kilometrlik Biləsuvar-İran sərhədi yolu, Biləsuvar şəhərinin mərkəzini rayonun Əsgərabad, Ağalıkənd, Əmənkənd, Aşağı Cürəli və Yuxarı Cürəli kəndləri ilə birləşdirən 21 kilometr uzunluqda yol çəkilmişdir. Bəhramtəpə-Biləsuvar magistral avtomobil yolunun xeyli hissəsinə asfalt döşənmiş, Ələt-Astara magistralının rayon ərazisindən keçən hissəsində təmir işləri aparılmışdır. Hazırda 16 kilometrlik Günəşli-Ağayrı-İsmətli-Aranlı-Çinarlı-Əliabad, 6 kilometrlik Əsgərabad-Muğan kənd avtomobil yollarının inşası işləri gedir.

Bu il kənd təsərrüfatı işçilərinin əhval-ruhiyyəsi olduqca yüksəkdir. Əkin-biçin adamları bu günlər yalnız yenilik hissi ilə yaşayıb yaradırlar. Rayonun kənd təsərrüfatı ilə məşğul olan insanları həmişə olduğu kimi, 2015-ci ildə də yeni qüvvə və ruh yüksəkliyi ilə işləyirlər. Pambıqçılıq, taxılçılıq və heyvandarlıq Biləsuvar sakinlərinin əsas məşğuliyyət sahələridir. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarından irəli gələn vəzifələr, habelə 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan olunması ilə bağlı tədbirlər ardıcıl surətdə yerinə yetirilir. Rayonda 135789 hektar torpaq sahəsi mövcuddur, bunun 110072 hektarı kənd təsərrüfatına yararlıdır. Rayonun iqlim şəraiti, bərəkətli torpaqları burada digər qiymətli ərzaq bitkilərinin, həmçinin texniki bitkilərin də yetişdirilməsi üçün çox əlverişlidir.

Kəndli fermerlər ölkə rəhbərliyinin aqrar sahə qarşısında qoyduğu vəzifələrin mahiyyətini yetərincə dərk edərək kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, ərzaq təhlükəsizliyini təmin etməkdə var qüvvə ilə çalışırlar. Rayon iqtisadiyyatının əsasını təşkil edən aqrar bölmənin bütün sahələrində uğurlar qazanılmış, bu il nəzərdə tutulduğundan artıq kartof, tərəvəz, bostan məhsulları, günəbaxan və digər meyvə yetişdirilir. Heyvandarlıq təsərrüfatlarında mal-qaranın baş sayı sürətlə artmış, məhsul istehsalında ciddi irəliləyiş müşahidə edilmişdir. Torpaq sahiblərinə, heyvandarlara və aqrar sahənin digər sahələrində çalışan insanların fəaliyyəti üçün normal şərait yaradılır. Sakinlər əyani şəkildə görürlər ki, dövlətin rəhbəri kənd adamlarının əməyinə necə böyük qiymət verir, onların işlərinin irəli getməsindən ötrü necə böyük qayğı və diqqət göstərir.

Torpaqlardan səmərəli istifadə nəticəsində əhalinin ərzaq təminatı yaxşılaşmış, məhsul istehsalı ötən ilin müvafiq dövründəkinə nisbətən xeyli artmışdır. Qəbul edilmiş Dövlət proqramlarına uyğun olaraq əsas diqqət taxıl məhsulları istehsalının artırılmasına yönəldilmişdir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamları ilə ərzaqlıq taxıl istehsalçılarına edilən yardımlar, bu yardımların miqdarının getdikcə artırılması, torpaq mülkiyyətçilərinə yanacaq, gübrə, toxumluq taxıl almaq üçün güzəştlərin müəyyən edilməsi insanların əmək əhval-ruhiyyəsini qat-qat yüksəltmişdir. Fermerlər tərəfindən keçən mövsümdə 68304 ton taxıl məhsulları istehsal olunmuşdur. Sakinlər özlərini qiymətli ərzaq məhsulu ilə kifayət qədər təmin etmiş, nəinki daxili tələbat ödənilmiş, kifayət miqdarda taxıl ehtiyatı yaradılmışdır. Ötən payızda 2015-ci ilin məhsulu üçün 21653 hektara taxıl əkilmişdir. Bundan başqa, 224 hektarda qarğıdalı, 392 hektarda yonca, 1274 hektarda pambıq, 359 hektarda günəbaxan, 151 hektarda kartof, 882 hektarda tərəvəz, 695 hektarda şəkər çuğunduru, 41 hektarda bostan bitkiləri əkilmişdir.

Əldə edilmiş məhsulların böyük bir hissəsi yerli bazarlarda istehsalçıların özləri tərəfindən reallaşdırılmış, Bakı şəhərində təşkil olunmuş yarmarkaya da satış üçün müxtəlif kənd təsərrüfatı məhsuları göndərilmişdir.

Fermer təsərrüfatlarına texniki xidməti gücləndirmək məqsədilə “Aqrolizinq” ASC-nin rayondakı Aqroservis filialı tam gücü ilə işləyir. Bu müəssisə tərəfindən kənd adamlarına güzəştli şərtlərlə kifayət qədər mineral gübrələr satılmışdır. Müəssisədə səyyar texniki xidmətə üstünlük verilir. Bu məqsədlə təmir və qaynaq işçilərindən ibarət briqadalar fermerlərin hər bir çağırışına getməyə, istənilən vaxt, istənilən sahədə xidmət göstərməyə hazırdırlar. Təşkilatın xətti ilə rayona 270 baş cins mal-qara gətirilmişdir. Ümumiyyətlə, müəssisənin qapıları torpaq mülkiyyətçilərinin üzünə daim açıqdır. Fermerlərin arzu etdikləri hər hansı texnikanın onlara verilməsində heç bir məhdudiyyət yoxdur və bu sifarişlər “Aqrolizinq”in qüvvəsi daxilindədir.

Torpaq və relyef şəraitinə uyğun suvarma və meliorasiya işlərinə də ciddi diqqət yetirilmiş, 19207 hektar əkin sahəsi, o cümlədən 2200 hektar həyətyanı sahə keyfiyyətlə suvarılmışdır. Cənubi Muğan kanalının istismarı, Suvarma sistemləri, Melioservis idarələrinin, Mərkəzi Muğan Kollektorlar İstismarı İdarəsi rayon şöbəsinin kollektivləri bu sahəyə böyük diqqət yetirirlər.

Rayon iqtisadiyyatında məşğul olanların yarıdan çoxu özəl bölmədə çalışır. Bu fakt sahibkarlığın inkişaf etdirilməsinin yüksək templərini və bu inkişafdan ötrü münbit şəraitin mövcudluğunu sübut edir. Birinci rübdə 34 sahibkarlıq subyektinə 368 min manat kredit verilmişdir. Görülmüş tədbirlər nəticəsində 331 yeni iş yeri yaradılmışdır.

Ölkə rəhbərliyinin vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəltdiyi tədbirlər Biləsuvarda da uğurla həyata keçirilir. Nəqliyyatda yük və sərnişin daşınması nəzərəçarpacaq dərəcədə artmışdır. Rayonun yaşayış məntəqələrinin təbii qazla təmin olunması, su-kanalizasiya sisteminin yenidən qurulması sahələrində mühüm işlər görülmüş, Ağayrı, Günəşli, Nərimankənd, Səmədabad, Muğankənd və Yuxarı Ağalı kəndlərində ümumi uzunluğu 86,7 kilometr olan qazlaşdırılma işləri aparılmışdır. Məşğulluğun təmin olunması, sosial müdafiənin gücləndirilməsi, pensiya və müavinətlərin vaxtında ödənilməsi, aztəminatlı ailələrə sosial yardımların verilməsi əvvəlki vaxtlara nisbətən daha yaxşı təşkil edilmişdir. Cari ilin ötən dövründə 1245 ailənin 6280 nəfər üzvünə ünvanlı sosial yardım ödənilmişdir.

Hazırda Biləsuvarda 36 ümumtəhsil, 3 məktəbdənkənar təlim-tərbiyə müəssisəsində 1600-dən çox pedaqoji işçi çalışır. Məktəblərin maddi-texniki bazası əvvəlki illərə nisbətən xeyli möhkəmləndirilmiş, son illərdə 9 yeni məktəb binası tikilmişdir. Ötən il ümumi şagird tutumu 1310 nəfər olan 3 məktəb binası, 2 uşaq bağçası inşa olunmuş, 1176 yerlik 1 məktəb binası əsaslı təmir olunmuşdur, digər məktəblərdə geniş miqyasda təmir işləri aparılmış, istilik sistemləri yenidən qurulmuş, məktəblərə kifayət qədər tədris avadanlığı və inventar verilmişdir.

Əhaliyə mərkəzi xəstəxana, uşaq xəstəxanası, kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri yüksək səhiyyə xidməti göstərir. Xüsusilə ailə planlaşdırılmasına, ana və uşaq mühafizəsinə diqqət artırılmış, yoluxucu xəstəliklərə qarşı intensiv profilaktika tədbirləri həyata keçirilmiş, sanitar-gigiyenik durumun sabit saxlanılması sahəsində zəruri tədbirlər görülmüşdür. Əhalinin tibbi müayinədən keçirilməsi haqqında dövlət başçısının tapşırığı uğurla həyata keçirilir. Son vaxtlar 6 kənddə yeni səhiyyə xidməti binaları tikilib istifadəyə verilmişdir. Rayon mərkəzi xəstəxanasının yenidən qurulması sürətlə aparılır. Rayonda mədəniyyət müəssisələrinin işi xeyli canlandırılmış, gənclərin asudə vaxtının mənalı və maraqlı keçməsi üçün lazımi şərait yaradılmışdır. Tarix və mədəniyyət abidələrinin qorunub saxlanılması, maddi-mənəvi irsin mühafizəsindən ötrü bütün imkanlar səfərbər edilmişdir.

Bu gün hər birimiz biləsuvarlıların işləri ilə tanış olarkən böyük inamla və qəti şəkildə deyə bilərik ki, burada həyata keçirilən Azərbaycan rəhbərliyinin yürütdüyü daxili və xarici siyasət ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin məntiqi davamıdır. Məhz bu siyasət, bu strategiya onları da ilbəil daha möhtəşəm nailiyyətlərə, qələbələrə doğru aparır. Qarşıdakı illərdə əhalinin güzəranının yaxşılaşdırılması, yoxsulluğun minimuma endirilməsi, xüsusilə xidmət sahələrinin işinin nümunəvi təşkili, ehtiyacı olan vətəndaşların maddi təminatının ardıcıl olaraq yaxşılaşdırılması yenə də rayon rəhbərliyinin, kənd adamlarının fəaliyyətində əsas istiqamət olacaqdır. Heç şübhəsiz, bu insanlar 2015-ci ili layiqli nəticələrlə başa vurmaqdan ötrü daha böyük əzmlə çalışacaqlar.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**





